Xalq qəzeti 2020.- 5 fevral.- S.7.

**Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycanın Xalq artisti, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunu 75 illik yubileyi münasibətilə təbrik edib. AZƏRTAC BelTA agentliyinə istinadla xəbər verir ki, məlumatı Belarus liderinin mətbuat xidməti yayıb.**



# Belarus Prezidenti Polad Bülbüloğlunu təbrik edib

**Təbrik məktubunda deyilir:** "Tanınmış müğənni və bəstəkar, gözəl aktyor və pedaqoq, qüsursuz avtoriteti və əla insani keyfiyyətləri olan siyasətçi kimi Siz öz işinə sonsuz sədaqət və məsuliyyətli münasibət nümunəsi olmusunuz. Sizin yüksək peşəkarlığınız, zəngin təcrübəniz və bilikləriniz uzun illər ərzində həqiqi mədəni dəyərlərin təbliğinə və Belarus, Azərbaycan və Rusiya arasında dialoqun daha məzmunlu olmasına yönəlib".

Aleksandr Lukaşenko əmin olduğunu bildirib ki, Polad Bülbüloğlunun gerçəkliyin müdrik dərk edilməsi və xeyirin təntənəsinə inamla müşayiət olunan çoxşaxəli fəaliyyəti gələcəkdə də insanlara sevinc və ilham bəxş edəcək, yüksək əxlaqi meyarlara cavab verəcək. Prezident ona möhkəm cansağlığı, xoşbəxtlik, yeni uğurlar və nailiyyətlər arzulayıb.

***Ümummilli liderimiz Heydər Əliyev mədəniyyət siyasətini ölkəmizdə müstəqil dövlət quruculuğunun ən mühüm amillərindən biri hesab edirdi. Bütün fəaliyyəti boyu xalqımızın mənəvi dəyərlərinin qorunmasını, təbliğini və inkişaf etdirilməsini vacib vəzifə kimi qarşıya qoyan ulu öndər müstəqillik dövründə bu işin daha böyük məna daşıdığını, ölkəmizin beynəlxalq miqyasda tanınması və layiqli yer tutması üçün mədəniyyət faktorunun həlledici amillərdən biri olduğunu dəfələrlə vurğulamışdır. Heydər Əliyev özü mədəniyyət siyasətinə nə qədər böyük önəm verdiyini belə ifadə etmişdir: "Mən bütün həyatım boyu həmişə və hər yerdə, həyatımın bütün mərhələlərində, cəmiyyətin inkişafının bütün dövrlərində mədəniyyətə böyük əhəmiyyət vermişəm."***

SSRİ müqyasında həm də ən populyar müğənnilərdən biri kimi tanınmışdı. Əslində, o, adi müğənni yox, yalnız öz mahnılarını oxuyan bəstəkar idi. Bütün səhnə fəaliyyəti ərzində hansısa başqa bəstəkarın bir mahnısını belə oxumamışdır. Yalnız son illər konsertlərində Bülbülün repertuarından bəzi xalq mahnılarını ifa edir. Musiqi yaradıcılığı ilə paralel olaraq, Polad Bülbüloğlu böyük tamaşaçı auditoriyası toplamış "Qorxma, mən səninləyəm" filmində baş rola çəkilmiş, peşəkar səviyyəli aktyor istedadına da malik olduğunu isbat etmişdir. Yaradıcılıq fəaliyyətinə görə Polad Bülüloğlu respublikamızın Xalq artisti fəxri adına layiq görülmüşdür.

Xüsusi qeyd etmək lazımdır ki, bütün